# Qərarlar

- **"Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 7 yanvar tarixli 1 nömrəli Qərarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı** (*27 may 2019-cu il)*

- **Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan Diasporuna Dəstək Fondunun strukturu, işçilərinin say həddi və əməkhaqqı fondunun təsdiq edilməsi barədə Azərbaycan Respublikasi Nazirlər Kabinetinin qərarı** (*31 yanvar 2019-cu il*)

- **"Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasi Nazirlər Kabinetinin qərarı** (*8 oktyabr 2018-ci il*)

- **Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin kollegiyasının tərkibi haqqında Azərbaycan Respublikasi Nazirlər Kabinetinin qərarı** (*7 yanvar 2015-ci il*)

- **Azərbaycanlıların həmrəyliyi günü haqqında Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının Qərarı** *(25 dekabr 1991-ci il)*

# "Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 7 yanvar tarixli 1 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 14 may tarixli 95 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"nin 16-cı hissəsinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 7 yanvar tarixli 1 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 1, maddə 55) 1-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"1. Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin kollegiya üzvlərinin sayı 15 nəfərdən ibarət müəyyənləşdirilsin və aşağıdakı tərkibdə təsdiq edilsin:

**Kollegiyanın sədri**

Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin sədri

**Kollegiyanın üzvləri:**

Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini

Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin müavinləri

Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi Aparatının rəhbəri

Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi Aparatının rəhbərinin müavini

Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin müşaviri

Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi Aparatının İnsan resursları, hüquq və sənədlərlə iş şöbəsinin müdiri

Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi Aparatının I ərazi şöbəsinin müdiri

Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi Aparatının II ərazi şöbəsinin müdiri

Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi Aparatının III ərazi şöbəsinin müdiri

Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi Aparatının IV ərazi şöbəsinin müdiri

Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi Aparatının Beynəlxalq əlaqələr və protokol şöbəsinin müdiri

Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi Aparatının Təbliğat, informasiya və analitik təhlil şöbəsinin müdiri

Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi Aparatının Maliyyə və təminat şöbəsinin müdiri.”.

**Azərbaycan Respublikasının Baş naziri**
**Novruz MƏMMƏDOV**

Bakı şəhəri, 27 may 2019-cu il
№ 245

# Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan Diasporuna Dəstək Fondunun strukturu, işçilərinin say həddi və əməkhaqqı fondunun təsdiq edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan Diasporuna Dəstək Fondunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyul tarixli 170 nömrəli Fərmanının 4.6-cı bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan Diasporuna Dəstək Fondunun strukturu" təsdiq edilsin (1 nömrəli əlavə).

2. "Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan Diasporuna Dəstək Fondunun işçilərinin əməkhaqqı fondu" təsdiq edilsin (2 nömrəli əlavə).

3. Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan Diasporuna Dəstək Fondunun işçilərinin say həddi 12 vahid müəyyən edilsin.

4. Bu Qərarda dəyişikliklər Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

5. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri**
**Novruz MƏMMƏDOV**

Bakı şəhəri, 31 yanvar 2019-cu il
№29

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2019-cu il 31 yanvar tarixli 29 nömrəli Qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR
**1 nömrəli əlavə**

**Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan Diasporuna Dəstək Fondunun**

**STRUKTURU**

1. Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan Diasporuna Dəstək Fondunun Aparatı.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2019-cu il 31 yanvar tarixli 29 nömrəli Qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR
**2 nömrəli əlavə**

**Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan Diasporuna Dəstək Fondunun**

**ƏMƏKHAQQI FONDU**

| Sıra №-si | **Xərclərin iqtisadi təsnifatı** | Məbləğ (manatla) |
|---|---|---|
| 1. | Ştatda olan işçilərin əməkhaqqı | 122976 |
| 2. | Əməyin ödənişi ilə bağlı sair pul ödənişləri | 40992 |
| 3. | Dövlət Sosial Müdafiə Fonduna ayırmalar | 36073 |
| 4. | İşsizlikdən sığortaya ayırmalar | 820 |
| | **Cəmi** | **200861** |

# “Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı”nın təsdiq edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan Diasporuna Dəstək Fondunun yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyul tarixli 170 nömrəli Fərmanının 4.8-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı” təsdiq edilsin (əlavə olunur).

**Azərbaycan Respublikasının Baş naziri Novruz MƏMMƏDOV**

Bakı şəhəri, 8 oktyabr 2018-ci il
№ 430

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2018-ci il 8 oktyabr tarixli 430 nömrəli qərarı ilə
təsdiq edilmişdir.

**Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin strukturuna daxil olmayan tabeliyindəki qurumların**

**SİYAHISI**

1. Azərbaycan Diasporuna Dəstək Fondu.

## Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin kollegiyasının tərkibi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 14 may tarixli 95 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"nin 16-cı hissəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

*1. Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin kollegiya üzvlərinin sayı 15 nəfərdən ibarət müəyyənləşdirilsin və aşağıdakı tərkibdə təsdiq edilsin:*[1]

***Kollegiyanın sədri***

*Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin sədri*

***Kollegiyanın üzvləri:***

*Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini*

*Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin müavinləri*

*Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi Aparatının rəhbəri*

*Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi Aparatının rəhbərinin müavini*

*Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin müşaviri*

*Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi Aparatının İnsan resursları, hüquq və sənədlərlə iş şöbəsinin müdiri*

*Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi Aparatının I ərazi şöbəsinin müdiri*

*Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi Aparatının II ərazi şöbəsinin müdiri*

*Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi Aparatının III ərazi şöbəsinin müdiri*

*Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi Aparatının IV ərazi şöbəsinin müdiri*

*Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi Aparatının Beynəlxalq əlaqələr və protokol şöbəsinin müdiri*

*Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi Aparatının Təbliğat, informasiya və analitik təhlil şöbəsinin müdiri*

*Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi Aparatının Maliyyə və təminat şöbəsinin müdiri.*

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

Bakı şəhəri, 7 yanvar 2015-ci il
№ 1

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

**1.** 27 may 2019-cu il tarixli **245** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 1 iyun 2019-cu il, № 119, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 5, maddə 978)**

**QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 27 may 2019-cu il tarixli **245** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 1 iyun 2019-cu il, № 119, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 5, maddə 978)** ilə 1-ci hissə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~1. Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin kollegiya üzvlərinin sayı 9 nəfərdən ibarət müəyyənləşdirilsin və aşağıdakı tərkibdə təsdiq edilsin:~~

**~~Kollegiyanın sədri~~**

| | | |
|---|---|---|
| ~~İbrahimov Nazim Hüseyn oğlu~~ | – | ~~Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin sədri~~ |

**~~Kollegiyanın üzvləri:~~**

| | | |
|---|---|---|
| ~~Hacıyev Valeh Tofiq oğlu~~ | – | ~~Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini~~ |
| ~~Səmədov Abutalıb Qəmbər oğlu~~ | – | ~~Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin müavini~~ |
| ~~Qurbanov Nəriman Əhmədağa oğlu~~ | – | ~~Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi Aparatının rəhbəri~~ |

| | | |
|---|---|---|
| ~~Əliyev Rizvan Bayramqulu oğlu~~ | – | ~~Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin I ərazi şöbəsinin müdiri~~ |
| ~~Məmmədov İlham Hacı oğlu~~ | – | ~~Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin II ərazi şöbəsinin müdiri~~ |
| ~~Nəcəfov Fizuli Tarverdi oğlu~~ | – | ~~Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin III ərazi şöbəsinin müdiri~~ |
| ~~Vəliyev Cavanşir İnqlab oğlu~~ | – | ~~Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin IV ərazi şöbəsinin müdiri~~ |
| ~~Miraləm Elşad Mircavad oğlu~~ | – | ~~Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin təbliğat, informasiya və analitik təhlil şöbəsinin müdiri~~ |

**Azərbaycanlıların həmrəyliyi günü haqqında**

**Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının Qərarı**

Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası **qərara alır:**

Hər il dekabr ayının 31-i bütün dünyada yaşayan azərbaycanlıların həmrəyliyi günü elan edilsin.

**Azərbaycan Respublikası Ali Sovetinin sədri**

**E. QAFAROVA**

Bakı şəhəri, 25 dekabr 1991-ci il.

№ 38.